*(Əvvəli ötən sayımızda)*

# RUHUN BEŞİYİ - POEZİYA...

**II məqalə**

Şairin indiyədək nəşr etdirdiyi kitablarında həyat, dünya, ömür-gün, dövrün ictimai-mədəni, mənəvi-əxlaqi mənzərəsi, qayğılarımız və problemlərimiz, Qarabağ müharibəsi, şəhidlik mövzusu, dünyada və Azərbaycanda gedən proseslərə fərdi baxış rakursu daha çox özünü büruzə verməkdədir. Mahirənin şeirləri boz axından - nəzmkarlıqdan, şeirbazlıqdan, qrafomançılıqdan qütblərarası bir məsafədədir. Onun yaradıcılığının spesifik konturları mövcuddur.

Mahirə Nağıqızı imzası müasir ədəbiyyat aləmində -- Azərbaycan mədəni-ədəbi ictimaiyyəti, fikir adamları, ədəbiyyatşünas və tənqidçilər, dost-tanışlar arasında etiraf olunan imzalardandır və özünəməxsus, daim impuls verən poetik enerjiyə malikdir, məsələn, bu bayatılardakı kimi:

Ağam gəl, ay ağam gəl,
Dərd böyüdüb dağam gəl.
Ömür fani, baxt zalım,
Nə qədər ki, sağam gəl!

Bulud kimi dolan var,
Çiçək kimi solan var,
Quzudan qurban olurmu,
Məntək qurban olan var.

Çölündə bitəm, boylanam,
Bağımda sitəm, boylanam.
Hopam göylərdə buluda,
Sən tərəf, vətən, boylanam.

Bu müşahidə ediyimiz poetik cəhətlər - gözlənilməz bənzətmələr, təşbihlər, obrazlar, aleterasiyalar, səs və söz duyumu Mahirə Nağıqızının şeirlərində onun müasir həyatdan, yaşadığımız bu dünyadan, əlbəttə, ilk növbədə, Azərbaycan gerçəkliyindən aldığı lirik təəssüratlar, duyğu və düşüncələr axarında öz əksini tapır. Onun təfəkkür palitrası yetərincə polifunksionaldır. O, həyatda, cəmiyyətdə, təbiətdə, insan münasibətlərində baş verən, görə bildiyi hadisələrə biganə qalmır, bu günün həqiqətlərini qələmə alır, hətta keçmişdən, tarixdən yazanda da bu gün, çağdaş dünyamız onun şeirlərinin başlıca leytmotivinə çevrilir, insan ömrünün bitib-tükənməyən arzuları və bu ömrün sevincli-kədərli nəyi varsa şairin şeirlərinin mövzusu olur, özünəməxsus yeni poetik biçimdə misra-misra, bənd-bənd biçimlənir, ənənəvi dünya mövzuzunda yazılan "Dünya" şeirində olduğu təkin ömrün yaddaşı sözdə canlanır, şair lirik-fəlsəfi yanaşmalarla mənəvi axtarışda bulunur:

Gözümü açandan özümü gördüm,
Gördüyüm özüməm, ya baxtdı, dünya.
Anam deyəndimi, atam söyləyən,
Cavab axtarıram nə vaxtdı, dünya.



Yeridim, hər addım bir mənzilbaşı,
Açdığım hər varaq bir divar daşı.
Haraya çatdımsa ömrün yaddaşı,
Dedi gecikibsən, bivaxtdı, dünya.

Yaşam hikmətinin nəyidi dərin,
Ən böyük biclikdi düzlük- deməyin.
Tanrı göndərdiyi peyğəmbərlərin,
Hansı demədi ki, nə haqdı, dünya?

İnsanı ağladan, güldürəndimi,
Güldürən ağladıb dərd verəndimi?
Zalım öləndimi, öldürəndimi,
Düz deyən mərddimi, namərddi, dünya?

Axtardım özümü mən addım-addım,
Od əgər haqdısa odda yanırdım.
Nələri tapmışam, nə axtarırdım,
Bu ya təsəllidi, ya dərddi, dünya.

Göründüyü kimi, Mahirə Nağıqızı ənənəvi mövzuda fərqli düşüncə tərzi ortaya qoyur, onun şeirlərində poetik fikir qeyri-adi çalarlarıyla meydana çıxır. O, belə mövzularda bizim adət etdiyimiz düşüncə sistemini, duyum tərzini rahatca dəyişib, fikirlərini, duyğularını fərqli şəkildə, amma, yenə də ənənəvi qiyafədə təqdim edir. Azərbaycan, ana vətən silsiləsindən yazdığı şeirlər dediklərimizə bariz nümunədir:

Azərbaycan-
Qayalarından uca,
Yaşımdan da cavan,
Dünyadan qoca.

Azərbaycan-
Nəsil-nəsil doğuluşum.
Küləndən yaranan,
Mənim səməndər quşum.

... Azərbaycan-
Kürüm qədər lal, dəli.
Ahıllar qədər susqun,
Cahıllar qədər hikkəli.

... Azərbaycan-
Ünvanı- növrağımın.
Əyilməyən dirəyisən,
Üçrəngli bayrağımın.

Onun müraciət etdiyi mövzuya fərdi rakursdan yanaşmaq istəyi və bacarığı əksər məqamlarda özünü göstərir. Bu şeirdəki obrazlar sistemi, tə-zadlar, ibarə və frazalar fərqlidir, münasibət yenidir, şerin strukturu, poetik modeli də, ritmi də özünəməxsusluğu ilə seçilir... Təzad, ibarə, fraza - dediklərimiz nəsnələr müəllifin poetik üslubunun parlaq bədii obrazlarını və lirik süjetin xüsusiyyətlərini nümayiş etdirir. Onun şeirlərində indiyə qədər vərdiş etmədiyimiz ritmik nitq, orjinal qafiyə sistemi ilə diqqətimizi cəlb edir. Odur ki, onun poetik mətnlərinin melodik lirizmi könülləri hədəfləyir.... Burada zaman və məkan xronotopları da ahəngdarlıqla bir-birini tamamlayır... Bu baxımdan onun şeirləri uyarlı poetik assosiasiya yaradır... Buradakı obrazlar fərqli yozumda təqdim olunur. Daha doğrusu, müəllifin baxışında doğma elə, obaya vurğunluq özünü aşkar biruzə verir. Bu qəbildən əsərləri öz məzmunu, obrazlılığı, fikrin deyim çaları ilə diqqətəlayiq nümunələrdəndir. Bu şeirlərdə isə bugünkü həyatın, gedişatın adekvat mənzərəsi ustalıqla təsvir edilir. Şair poetik hiss və duyğularını elə ifadələr, düzümlərlə oxuculara təqdim edir ki, ənənəvi obrazlar yeniləşir, təzə təravətdə təqdim edilir...

Onun şeirlərindən hiss, fikir insanların iç dünyasına, qeyri-adi düşüncəsinə rahatlıqla, təbii, maraqlı poetik lövhə şəklində daxil olur, onların həyata münasibəti haqqında görümlu bir təsəvvür formalaşdırır. Daha doğrusu, bu şeirlərdən insanın əsl mahiyyəti boylanır:

Füzuliyə boğça oldu,
Xətaiyə taxça oldu,
Süleymana axça oldu,
Cahü-cəlalı dünyanın.

Mahirə, qəlb yandısa, de,
Yetişibdi, andısa, de.
Umacağı candısa, de,
Olsun halalı dünyanın.

Və yaxud:

Vay o günə, mərd namərdə əl aça,
Nakəs olan meydan qura, qol aça.
Nağıqızı, hər ümid bir qalaça,
Ömr uzadar, günü bəhər sayılar.

Onun bu tipli şeirlərində vətənə, torpağa, anaya, insana müqəddəs , sonsuz sevgi var. Bu qəbildən - "Vətəndir", "Şəhid nəğməsi", "Tanrı yolu", "Xocalı üçün elegiya", "Al bayrağım", "İstanbulun axşamları" və s. onlarla şeirləri vətənə, torpağa, insana, doğmalara məhəbbətin mayası ilə yoğrulubdur. Onun şeirlərinin kontekstində cəlbedici sadəlik və səmimiyyət var - adi, sadə və insani... "Vətəndir" şeirində olduğu kimi və mənə elə gəldi ki, bu şeir poeziyamızda bu mövzuda yazılan ən yaxşı şeirlər sırasında olmağa layiqdir:

Bu vətən deyilən torpaq deyil ki,
Ananın dizinin yanı-vətəndir.
Başını qoymağa bir sinə varsa,
Ruhuna beşiksə, tanı, vətəndir.

Dünyanın sirri bir, sualları çox,
Boy verən nə qədər... cavab verən yox.
Oğlunun, qızının gözü-könlü tox,
Bir ümid yerinin canı vətəndir.

Hər ağla gələnlər yığbala gəlməz,
Haqdan gəlməyəni yığ, bala, gəlməz.
Sevənin günahı babala gəlməz,
Ürəyə can verən qanı vətəndir.

Kimə doğma dedin, kimə yad dedin,
Nə haray istədin, nə imdad-dedin?
Qürbətin havası verməz dad-dedin,
Adının hər adı-sanı vətəndir.

Qurduğun dünyanın hər daşı-vətən,
Ömrünün-gününün yoldaşı-vətən,
Mahirə, demədi qəm daşı vətən,
Dərmanın hardadır, hanı - vətəndir.

Qoşmadakı poetik fikrin və hissin ardıcıllığı, "Vətən" məfumuna yeni mənəvi-əxlaqi baxış bucağı - "Anamın dizinin yanı Vətəndir", "Ruhuna beşiksə, tanı, Vətəndir" deyimlərinin yeniliyi, "Dünyanın sirri bir, sualları çox", "Boy verən nə qədər... cavab verən yox" misralarının aforizm qədər məna yükü, şeirin arxotekstindəki oturuşmuş qafiyə sistemi, kursivlə verdiyimiz üçüncü bəndləmədəki cinas qafiyələrinin tamamilə orjinallığı (fikrimizcə bu cinaslar ilk dəfədir ki, şeirə gətirilir), dördüncü bənddə qürbət - vətən antitezinin qarşılaşdırmasından yaranan müasir mənəvi nisgilin əzabverici ağrısı və sonuncü bənddəki Məmməd Arazsayağı ritmik ahəngin mahir ifadəsi və poetik mübaliğənin yaratdığı nikbin ovqat Mahirə Nağıqızının bir istedadlı şair kimi məharətinin impulslarıdır...

*(Davamı var)*

***Qurban BAYRAMOV,***
***ədəbiyyatşünas, tənqidçi***

